# İRƏVAN: ENSİKLOPEDİK FOTO-TOPLU

## I cild

**Tərtib edənlər:** **Cəfər CƏFƏROV**
filologiya üzrə elmlər doktoru, professor
**Cəlal ALLAHVERDİYEV**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Redaktor:** **Buludxan XƏLİLOV**
filologiya üzrə elmlər doktoru, professor

**İrəvan: Ensiklopedik foto-toplu.** Bakı, ADPU-nun nəşriyyatı, 2019, 161 səh.

İSBN 978-9952-37-151-2

© C.Cəfərov, 2019
© C.Allahverdiyev, 2019

# YURD NİSGİLLİ ZİYALILAR



**Abbas Tahir** 1912-ci ildə Qəmərli rayonun Məsimli kəndində anadan olmuşdur. 1931-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmişdir. 1928-ci ildən ədəbi yaradıcılığa başlamışdır. O, İrəvanda azərbaycan dilində yeganə mətbuat orqanı olan "Qızıl şəfəq" qəzetinin ən aktiv müxbirlərindən biri olmuşdur. A.Tahir 1943-cü ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsini bitirmişdir. Onun 1934-cü ildə "İlham mənbəyi", 1947-ci ildə isə "Qələbə baharı" adlı şeirlər kitabı nəşr edilmişdir.



**Abdulla Mirzəyev** 1915-ci ildə İrəvanda anadan olmuşdur. İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin fəallarından biri olmuşdur. O, İrəvanda azərbaycan dilində nəşr edilən "Zəngi" qəzetinin ən aktiv müxbirlərindən biri olmuşdur. O, 1937-ci ildə repressiyaya məruz qalmışdır.



**Adil Yunis oğlu Süleymanov** 1925-ci ildə İrəvanda anadan olmuşdur. Ilk təhsilini İrəvan şəhəri "Kirov" (sonradan M.F.Axundov) adına orta məktəbdə almışdır. Təhsilini Pedaqoji Texnikumda davam etdirmişdir. 1944-1945-ci illərdə Zəngibasar rayonu, Necili kəndində müəllimlik fəaliyyətinə başlamışdır.

1945-1946-cı illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə (azərbaycan şöbəsi) daxil olmuş, 1948-ci ildə azərbaycan şöbəsi Bakıya köçürüldüyü üçün Bakışəhərinə getmək məcburiyyətində qalmışdır.

1948-1949-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. Təyinatla Şuşa şəhər orta məktəbində 1950-1952-ci illərdə Göyçay rayonu Kürdşaban orta məktəbində fizika-riyaziyyat müəllimi vəzifəsində çalışmışdır.

1952-1954-cü illərdə Bakı şəhəri "Kirov" rayonu 182 və 29 saylı orta məktəblərdə müəllim işləmişdir.

1954-cü ildən İrəvan M.F.Axundov məktəbində fizika-riyaziyyat müəllimi işləmişdir.

1974-cü ildən son (qaçqınlığa) günlərə qədər 1988-ci il həmin məktəbin direktoru vəzifəsində işləmişdir.



**Aidə Salahova** İrəvanda anadan olmuşdur. O, İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı bölməsində uzun müddət dərs demişdir. Hal-hazırda Neft Akademiyasında pedaqoji fəaliyyətinin davam etdirir.



**Ağabəy İsmayılbəy oğlu Bağırbəyov** İrəvan şəhərində anadan olmuşdur. O, İrəvan gimnaziyasını bitirdikdən sonra Kiyev Universitetinin Hüquq fakültəsini bitirmişdir. O, bir sıra mühüm vəzifələrdə çalışmışdır.



**Allahverdi Məhərrəmov** İrəvanda anadan olmuşdur. İrəvanda milli maarifçiliyimizin inkişafında böyük rol oynaməşdır. Ömrünün 50 ildən artıq bir hissəsini milli təhsilimizin inkişafına həsr etmişdir.



**Bağır İbrahimxəlil oğlu Bağırov** 1929-cu ildə İrəvanda anadan olmuşdur. İrəvan Kənd Təsərrüfatı Texnikumunu bitirmişdir. 1948-ci ildə Azərbaycana deportasiya edilmiş və 1950-ci ildə APİnin dil-ədəbiyyat fakültəsini bitirmişdir. Filologiya elmləri doktoru, professor B.Bağırov Gəncədə məktəb direktoru, C.Cabbarlı adına Gəncə Dram Teatrının direktoru, Gəncə Dövlət Pedaqoji İnstitutunda müəllim və s. vəzifələrdə çalışmışdır.

**Bala Əfəndiyev** 1893-cü ildə Qərbi Azərbaycanın Qaraqoyunlu mahalında anadan olmuşdur. 1922-ci ildə "Ermənistan" K(b)P MK nəzdnində "Azsaylı xalqlar şöbəsi"nin müdiri, 1922-ci illərdə "Rəncbər", 1924-cü illərdə isə "Zəngi" qəzetinin məsul redaktoru olmuşdur. O, 1921-ci ildən 1929-cu ilə qədər İrəvanda işlədiyi dövrdə "Ermənistan" KP MK-nın və MİK-in üzvü, respublika Daxili İşlər Komissarının müavini, MKnın bölmə müdiri və "Ermənistan" İctimai Təminat Naziri vəzifələrində çalışmışdır. 1937-ci ildə repressiyaya məruz qalaraq güllələnmişdir.





**Bayramov Həsən Bayram oğlu** 1953-cü il mayın 1-də Qərbi Azərbaycanda, Krasnoselo rayonunun Toxluca kəndində qulluqçu ailəsində anadan olmuşdur.

1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsinə oxumuş, oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1989-cu ildə pedaqoqika üzrə fəlsəfə doktoru, 2017-ci ildə isə pedaqoqika üzrə elmlər doktoru adına layiq görülmüşdür.

1990-ci ildən 2014-cü ilədək ADPU-nun "Ümumi pedaqoqika" kafedrasının dosenti vəzifəsində çalışmış, 2014-cü ildən Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru olaraq, həm də Bakı Dövlət Universitetinin Pedaqoqika kafedrasında müəllim kimi əmək fəaliyyətini davam etdirir. Eyni zamanda 2012-ci ildən 9 saylı Binəqədi seçki dairəsi vəzifəsində çalışır.



**Bağır Rzazadə** 1908-ci ildə İrəvanda anadan olmuşdur. İrəvan gimnaziyasını bitirmişdir. 1923-cü illərdə İrəvanda fəaliyyət göstərən Rabifanda dərs deyib. 1930-cu ildə İrəvan Pedaqoji İnstitutunun Rus dili fakültəsini bitirmişdir. Ömrünün 45 ildən artıq hissəsini İrəvanda milli maarifimizin inkişafına həsr etmişdir.



**Bəhlul Yusifov** 1903-cü ildə Vedibasarda anadan olmuşdur. 1920-ci ildə partizan hərəkatına qoşularaq Abasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı vuruşmuşdur. 1921-1926-cı illərdə Vedidə müəllim, 1927-ci ildə Amasiya rayonunda təlimatçı işləmişdir. 1933-cü ildə Zaqafqaziya Kommunist Universitetini bitirdikdən sonra İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna direktor təyin edilmişdir. 1952-ci ildə namizədlik dissertasiyası müdafiə edərək, tarix elmləri namizədi adına layiq görülmüşdür.

1950-ci ildən ömrünün sonuna kimi Neft və Kimya İnstitutunda müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışmışdır.



Azərbaycanın görkəmli alimi, coğrafiya elmləri doktoru, professor, akademik **Budaq Budaqov** 1928-ci ildə Zəngibasar rayonun Cobankərə kəndində anadan olmuşdur. 1945-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbini bitirmişdir. 1952-ci ildə isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya fakültəsini bitirmişdir. 1955-ci ildə namizədlik, 1967-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1976-cı ildə AMEA-nın müxbir, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir. Uzun müddət Azərbaycan Respublikası Ağsaqqalar Şurasının sədri olmuşdur.



**Buludxan Əziz oğlu Xəlilov** 1966-cı ildə Amasiya rayonun Elləkənd kəndində anadan olmuşdur. 1990-ci ildə ADPU-nun Filologiya fakültəsini bitirmişdir. 1992-ci ildə namizədlik, 1999-cu ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Filologiya elmləri doktoru, professor B.Xəlilov 2004-cü ildə "Tərəqqi", 2001-ci ildə "İlin alimi" və bir sıra mükafatlara layiq görülmüşdür. ADPU-da dekan, kafedra müdiri vəzifələrində çalışmışdır. Dil komissiyasının, yazıçılar birliyinin, jurnalist birliyinin üzvüdür.



**Bülbül Hacı Məmməd Tağı qızı Kazımova** 1887-ci ildə İrəvan şəhərində anadan olmuşdur. 1914-cü ildə İrəvan rus-müsəlman qız məktəbini bitirmişdir. 1918-ci ilin sonlarında İrəvanda müəllimlik etmişdir. O, Azərbaycanda və "Ermənistan"da neçə-neçə məktəbin, klub və mədəniyyət evinin əsasını qoymuşdur. Ömrünün 50 ildən artıq bir hissəsini İrəvanda Azərbaycan ictimai-mədəni həyatının inkişafına sərf etmişdir. Görkəmli maarif işçisi, ictimai xadim B.Kazımova bir çox orden və metallarla təltif edilmişdir. 1976-cı ildə Bakıda vəfat etmişdir.



**Cabbar Hüseyn oğlu Məcnunbəyov** 20 iyun 1912-ci ildə İrəvan şəhərində anadan olmuşdur. 1918-ci ildə erməni daşnaklarının İrəvanda azərbaycanlılara qarşı törətdikləri qətliamlar zamanı Məcnunbəyovlar ailəsi də Türkiyəyə köçməyə məcbur olur. Sonra isə Məcnunbəyovlar ailəsi Azərbaycanda məskunlaşır. C.Məcnunbəyov 1927-ci ildə Bakı Pedaqoji Texnikumuna daxil olur. 1934-38-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında şöbə müdiri, 1938-39-cu illərdə isə Uşaq və Gənclər Nəşriyyatında şöbə müdiri vəzifəsində çalışmışdır. 1941-ci ildə Partiya Tarixi İnstitutunda elmi işçi kimi çalışmışdır. Yazıçı, dramaturq C.Məcnunbəyov bir sıra əsərlərin müəllifidir. O, 1967-ci ildə Bakı şəhərində vəfat etmişdir.

**Cabbar Quliyev** 1922-ci il may ayının 19-da İrəvan yaxınlığındakı Zəhmət kəndində anadan olmuşdur. 1961-1988-ci illərdə İrəvan Dövlət Pedsqoji İnstitutunun Azərbaycan şöbəsində təsviri sənət, incəsənət tarix və estetika fənnini tədris etmişdir. 1967-ci ildə "Əməkdar rəssam" fəxri adına layiq görülmüşdür. Onun yaradıcılığında Qərbi Azərbaycanın müxtəlif mənzərələri xüsusi yer tutur. "Ağrı dağı", "Zəngi çayı", "Göyçə gölü", "Qaçqınlar" və s. tablolar onun əsəridir.





**Cabbar Əsgər oğlu Əsgərzadə (Bağcaban)** 1885-ci ildə İrəvanda anadan olmuşdur. İlk təhsilini mollaxanada almışdır. 1914-cü ildə İrəvanda ilk dəfə olaraq "Lək-lək" adlı həftəlik dərği buraxmışdır. 1916-cı ildə Noraşendə (Şərurda) məktəb açır. 1919-cu ildə İrana köçməyə məcbur olur. Onun İrəvanda və İranda milli maarifçiliyimizin inkişafında böyük xidmətləri olmuş bir sıra məktəb və tərbiyə ocaqlarının açılması onun adı ilə bağlıdır.



**Cahangir Ələkbərbəyov** İrəvanda anadan olmuşdur. 1912-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1921-ci ildə "Ermənistan" Xalq Maarif Komissarlığında "xırda millətlər" şöbəsinin müdiri işləmişdir. Zaqafqaziya Kommunist Universitetini bitirmişdir.

**Ceyran Məmməd qızı Zeynalova** 1924-cü ildə İrəvanda anadan olmuşdur. İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmişdir. 1943-cü ildən Amasiya rayonunda pedaqoji fəaliyyət göstərən Ceyran xanım ictimai fəaliyyətinə görə də müxtəlif orden və medallarla təltif edilmişdir. O, 1966-cı ildə "Əməkdar müəllim" adına layiq görülmüşdür.





**Cəfər Əsəd oğlu Cəfərov** 1932-ci ildə "Ermənistan"ın Əştərək ryonun Hamamlı kəndində anadan olmuşdur. 1948-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu, 1958-ci ildə isə Bakı Dövlət Universitetini bitirmişdir. 1966-cı ildə dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi, 1992-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Filologiya elmləri doktoru, professor Cəfər Cəfərov 10-a yaxın monoqrafik və dərsliyin 100-dən artıq elmi əsərin müəllifidir. Elmi və pedaqoji fəaliyyətinə görə "Əməkdar müəllim", "Qabaqcıl təhsil işçisi" və s. fəxri ad və mükafatlara layiq görülmüşdür.



**Cəfər Ələkbərov** İrəvanda anadan olmuşdur. Leninqradda ali təhsil olmuşdur. 1946-cı illərdə İrəvanda Azərbaycanlı Pedaqoji Texnikumunda ilk partiya təşkilatının sədri olmuş və hərbi fənni tədris etmişdir.



**Cəlal Vaqif Oğlu Allahverdiyev** İrəvan yaxınlığındakı Zəngibasar rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADDİ-nu bitirmişdir. 2008-ci ildə namizədlik dissertasiyası müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Filologiya üzrə fəlsəfə doktoru, dosent C.Allahverdiyev 10-a qədər kitabın, 50-dən artıq elmi, publisistik əsərin müəllifidir. Elmi, pedaqoji və ictimai fəaliyyətinə görə bir sıra fəxri fərman, diplom və mükafatlara layiq görülmüşdür.



**Əbülfət Rəhimov** 1906-cı ildə Göyçə mahalının Zod kəndində anadan olmuşdur. İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmişdir. 1928-ci illərdə Basarkeçərdə nəşr olunan "Qırmızı Basarkeçər", İrəvanda nəşr edilən "Zəngi", "Qızıl şəfəq" qəzetlərində xeyli sayda şeirləri və məqalələri dərc edilmişdir. O, keçmiş SSRİ Yazıçılar İttifaqının üzvü, 1931-ci ildə isə "Ermənistan" Proletar Yazıçılar İttifaqının azərbaycanlı bölməsinin məsul katibi olmuşdur. O, İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin tərəqqisində fəal iştirak edən ziyalılarımızdan biri idi.



**Əhməd Muxtar oğlu Məmmədov** 1926-cı ildə İrəvan yaxınlığındakı Əştərək mahalının Sərimsəvəng kəndində anadan olmuşdur. 1948-51-ci illərdə Əştərək və Amasiya rayonunda müstəntiq, 1951-61-ci illərdə Basarkeçər rayonun prokuror köməkçisi, 1961-ci ildən 1969-cu ilə qədər isə Basarkeçər rayonun prokuroru vəzifəsində çalışmışdır. 1971-ci ildə Respublika Prokurorluğunun istintaq şöbəsinin prokuroru, sonra isə Sisian, Görüs, Qafan, Meğrı rayonları üzrə zona prokuroru vəzifəsində çalışmışdır.



**Əkbər Yunis oğlu İrəvanlı** 1921-ci ildə İrəvanda anadan olmuşdur. 1948-ci ildə İrəvan Dövlət Universitetinin filologiya fakültəsinin şərq şöbəsini bitirmişdir. 1938-ci ildə "Sovet Ermənistan"ı qəzetində ədəbi işçi, Ağbabada, Basarkeçərdə müəllim işləmişdir. Nasir, dramaturq Ə.İrəvanlı 1940-ci ildə "Ermənistan" Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı şöbəsinin müdiri işləmişdir. 1947-ci ildə namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi adına layiq görülmüş, uzun müddət İrəvan Pedaqoji İnstitutunda Azərbaycan dili kafedrasının müdiri olmuşdur.



**Ələmdar Haşimov** İrəvanda anadan olmuşdur. O, İrəvanda Azərbaycan ictimai-siyasi və mədəni həyatında fəal iştirak etmişdir. O, “Qızıl şəfəq” qəzetinin redaktor əvəzi olmuş, Ali Sovetin deputatı olmuşdur.

**Əli Abbas Ağa oğlu Fərəcov** 1927-ci ildə iyun ayının 7-də İrəvan şəhərinin Dərinbulaq məhəlləsində anadan olmuşdur. O, İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmişdir. 1951-ci ildə Bakı Dövlət Universitetini bitirmişdir. Əli müəllim 1965-ci ildə namizədlik 1972-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. O, Azərbaycan Dövlət Pedaqoji Universitetində dosent, professor, dekan, institutun “Elmi əsərləri”nin məsul katibi kimi vəzifələrdə çalışmışdır.





**Əli Ağayev** İrəvanda anadan olmuşdur. 1950-ci illərdə İrəvanda milli maarifimizin inkişafında onun da xidmətələri vardır. İrəvanın tanınmış ziyalılarından biri olmuşdur. Onun xidmətləri bu gün də minnətdarlıqla yad edilir.



**Əbdil Cəlil oğlu Cəlilov** 1912-ci ildə Vedibasar rayonun Böyük Vedi kəndində anadan olmuşdur. O, 1933-cü ildə Amasiya rayon Komsomol Komitəsinin siyasi təhsil şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. 1939-cu ildə Amasiya rayon Komsomol Komitəsinin birinci katibi vəzifəsində çalışmışdır. O, İrəvanda Ali Kommunist Kənd Təsərrüfatı məktəbini və İrəvandakı İkiillik Müəllimlər İnstitutunu bitirmişdir.



**Əli Şahin** 1910-cu ildə İrəvan şəhərində anadan olmuşdur. İrəvan Kənd Təsərrüfatı Texnikumunun azərbaycanlı şöbəsini bitirdikdən sonra 1933-cü ildə hərbi xidmətə yollanmışdır. Onun “Qızıl şəfəq” qəzetində xeyli şeirləri dərc edilmişdir. 1935-ci ildə onun “Dəmir axın” adlı şeirlər kitabı İrəvanda nəşr edilmişdir.



**Əbülfət İbrahim** 1912-ci ildə İrəvanda anadan olmuşdur. Irəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmişdir. O, 1929-cu ildən ədəbi yaradıcılığa başlamış və həmdə tərcüməçi kimi fəaliyyət göstərmişdir. Ə.İbrahim “Qızıl şəfəq” qəzetinin ən fəal müxbirlərindən biri olmuşdur.



**Əhməd Əhmədov** İrəvanda anadan olmuşdur. İrəvanda Azərbaycan ictimai-siyasi və mədəni həyatının formalaşmasında və inkişafında böyük rol oynamışdır. O, 1929-cu ildə “Ermənistan” MK-nin nəzdində “Azyaşlı xalqlar şöbəsi”nin müdiri vəzifəsində çalışmışdır.



**Əli Yüzbaşıyev** İrəvanda anadan olmuşdur. O, 1928-ci ildə İrəvanda fəaliyyət göstərən Kənd Təsərrüfatı Texnikumunun azərbaycanlı şöbəsinin müdiri olmuşdur. İrəvanda Azərbaycan maarifinin tərəqqisində onun da böyük rolu olmuşdur.




**Xədicə Əsgər bəy qızı Kəngərlinski** 1914-cü ildə İrəvanda anadan olmuşdur. Xədicə xanım Bakı Darülfünunu bitirmiş, sonra isə Gəncə Pedaqoji Texnikumunu bitirmişdir. İrəvanda pedaqoji fəaliyyət göstərən Xədicə xanım 1930-cu ildə BDU-ya daxil olmuşdur. 1937-ci ildə repressiyaya məruz qalmışdır.



**Əsgər Cəfərov** Qərbi Azərbaycanda anadan olmuşdur. O, 1947-ci illərdə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun direktoru vəzifəsində çalışmışdır. 1948-ci ildə Azərbaycana deportasiya edilmişdir.

**Əyyub Teymur oğlu Əzizov** 1934-cü ildə Zəngibasar rayonun Mehmandar kəndində anadan olmuşdur. 1948-ci ildə Azərbaycana deportasiya edilmişdi. 1957-ci ildə Azərbaycan Pedaqoji Universitetinin kimya fakültəsini bitirmişdir. 1961-ci ildən 1987-ci ilə kimi BDU-da assistent, dosent, 1987-ci ildən isə Qeyri-üzvi Kimya kafedrasının müdiri vəzifəsində çalışmış, 2000-ci ildə "Əməkdar müəllim" adına və bir sıra fəxri fərman və mükafatlara layiq görülmüşdür.





**Əziz Yusif oğlu Ələkbərli** 1960-cı il oktyabrın 5-də Vedi rayonunun Qaralar kəndində anadan olmuşdur. Qaralar kənd orta məktəbini bitirdikdən sonra BDU-nun filologiya fakültəsini bitirmiş, bir müddət müəllim işləmişdir. AMEA-da Nizami adında Ədəbiyyat və Folklor İnstitutunda müxtəlif vəzifələrdə çalışmışdır. 1992-ci ildə namizədlik, 2019-cu ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Azərbaycan Yazıçılar və Jurnalistlər birliyinin üzvüdür, 50-yə yaxın kitabın müəllifidir.



**Əziz Yunis oğlu Süleymanov** 1909-cu ildə mart ayının 1-də İrəvanda anadan olmuşdur. Bakı Teatr Texnikumunu bitirdikdən sonra 1923-cü ildə İrəvanda C.Cabbarlı adına Azərbaycan Dövlət Dram Teatrında fəaliyyət göstərir. 1949-1952-ci illərdə Zəngibasar rayon mədəniyyət şöbəsinin müdiri, 1954-1966-cı illərdə “Ermənistan” Mədəniyyət Nazirliyində baş təlimatçı, 1966-cı ilin sonrasında Azərbaycanlı Teatrının direktoru vəzifəsində çalışır. Yazıçı, dramaturq, tərcüməçi Əziz Süleymanovun İrəvan və Naxçıvan Dram Teatrının səhnəsində xeyli pyesləri tamaşaya qoyulmuşdur.



**Əziz Əzizov** İrəvanda anadan olmuşdur. İrəvanda milli maarifimizin inkişafında xidmətləri olan fədakar müəllimlərdən biri də Əziz Əzizov olmuşdur. O, İrəvanda nəşr edilən “Qızıl şəfəq” qəzetinin fəal müxbirlərindən biri olmuşdur.



**Əziz Nağıyev** İrəvanda anadan olmuşdur. O, İrəvanda fəaliyyət göstərən azərbaycanlı məktəblərində uzun müddət müəllim, direktor və s. vəzifələrdə işləmiş, milli maarifimizin və mədəniyyətimizin tərəqqisində böyük rol oynamışdır.



**Fatma Məhəmməd qızı Əfəndiyeva** 1906-cı ildə Dilican qəzasının Çaykənd kəndində anadan olmuşdur. İrəvanda Azərbaycan Qadınlar klubu, teatr, mətbuat, mədəni-maarif və s. sahələrdə fəal iştirak etmişdir. 1929-cu-30-cu illərdə Tiflisdə, 1930-cu-37-ci illərdə Bakıda yaşamış və fəaliyyət göstərmişdir. 1938-ci ildə repressiyaya məruz qalmışdır.



**Fatma Qədimova** İrəvanda anadan olmuşdur. O, ömrünün 50 ildən artıq bir hissəsini İrəvanda Azərbaycan təhsilinin inkişafına həsr etmişdir. 1900-cu illərdən müəllimlik fəaliyyəti göstərən Fatma xanım fədakar pedaqoji fəaliyyətinə görə “Lenin ordeni”, “Əməkdar müəllim” və s. orden və medallara layiq görülmüşdür.



**Fərhad Fərhadov** 27 sentyabr 1929-cu ildə Zəngibasar rayonun Rəncbər kəndində anadan olmuşdur. O, 1933-cü ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1941-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda dərs demişdir. Filologiya elmləri doktoru, professor Fərhad Fərhadov uzun müddət Azərbaycan Pedaqoji Universitetində müəllim, dosent, kafedra müdiri və dekan vəzifələrində işləmişdir.



**Fərrux Rizayev** İrəvanda anadan olmuşdur. O, İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı bölməsində uzun müddət dərs demişdir.



**Həbib Məhəmmədzadə** İrəvanda anadan olmuşdur. O, İrəvanın tanınmış Məhəmmədzadələr nəslindən idi. H.Məhəmmədzadə uzun müddət İrəvanda fəaliyyət göstərən İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun və İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun direktoru olmuşdur. O, 1948-ci ildə Azərbaycana deportasiya edilmişdir.



**Həbib Rəhim oğlu Həsənov** 5 avqust 1922-ci ildə Nor-Bayazit rayonun Ağzıbir kəndində anadan olmuşdur. İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmişdir. Nor-Bayazit rayonun Ağqala, Ağzıbir kənd məktəbin direktoru olmuşdur. Ikiillik partiya məktəbini bitirib. 1953-cü-56-cı illərdə Üçmüədzin Partiya Komitəsinin 2-ci katibi vəzifələrində işləmişdir. 1960-74-cü illərdə "Sovet Ermənistan"ı qəzetinin baş redaktoru olmuş, 1974-cü ildə Azərbaycanın Tovuz rayonuna partiya komitəsinin 1-ci katibi, 1980-ci illərdə Azərbaycan Meşə Təsərrüfatı Naziri vəzifəsində çalışmışdır.



**Həmid Zeynalabdin oğlu Əliyev** 192....-ci ildə Qaraqoyunlu mahalının Əmirxeyir kəndində anadan olmuşdur. 1939-cu ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsinə daxil olmuşdur. O, 1954-cü ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi, 1967-ci ildə isə tarix elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Professor H.Əliyev 100-dən artıq elmi əsərin 10 monoqrafiyanın müəllifi olmuş, "Əməkdar mədəniyyət işçisi", "Birinci dərəcəli Vətən Müharibəsi", "Qırmızı əmək bayrağı" ordenləri ilə təltif edilmişdir. O, 2005-ci ildə Bakı şəhərində vəfat etmişdir.



**Həsən İbrahim oğlu Mirzəyev** 1927-ci ildə noyabr ayının 26-da Qərbi Azərbaycanın Dərələyəz mahalının Qovuşuq kəndində anadan olmuşdur. Görkəmli alim, ictimai-siyasi xadim H.Mirzəyev 1965-ci ildə namizədlik, 1987-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Professor H.Mirzə 25 ildən artıq ADPU-da Müasir Azərbaycan dili kafedrasının müdiri, Milli Məclisin deputatı olmuşdur. O, "Şöhrət" ordeni, "Əməkdar elm xadimi", prezidentin fərdi təqaüdünə layiq görülmüşdür. Uzun müddət Respublika Ağsaqqalar Şurasının sədr müavini kimi fəaliyyət göstərmişdir.



**Həsən bəy Qazıyev** 1879-cu ildə İrəvanda anadan olmuşdur. 1896-cı ildə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Sonra isə Uluxanlı məktəbində dərs demişdir. O, İrəvan quberniyası müsəlmanlarının dini icmasının üzvü idi. O, 1918-ci ildə Naxçıvana köçmüş və müxtəlif məktəblərdə dərs demişdir. Əməkdar müəllim Həsən bəy Qazıyev ömrünün böyük bir hissəsini milli maarifçiliyimizin inkişafına həsr etmişdir. O, 1950-ci ildə vəfat etmişdir.



**Hüseyn Nəcəfov** İrəvanda anadan olmuşdur. O, İrəvanda nəşr edilən “Zəngi” qəzetində şöbə müdiri vəzifəsində çalışmışdır. Onun İrəvanda Azərbaycan mətbuatının inkişafında rolu olmuşdur.



**Hüseyn Vəkilov** İrəvanda anadan olmuşdur. İrəvanda azərbaycanlı məktəblərinin formalaşmasında və idarə edilməsində xüsusi rolu olmuşdur. Milli maarifçilik sayəsində səmərəli fəaliyyət göstərmişdir.



**İsfəndiyar bəy (Muğanlinski) Məhəmmədəli oğlu Sultanov** 1886-cı ildə İrəvan quberniyasının Ücmüədzin qəzasının Əkərək kəndində anadan olmuşdur. O, İrəvan gimnaziyasını bitirdikdən sonra Peterburq Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur. İsfəndiyar bəy hüquqşünas kimi fəaliyyət göstərməklə yanaşı həmdə pedaqoji fəaliyyət göstərmişdir. O, 1937-ci ildə repressiyaya məruz qalmışdır.



**İsrafil Süleyman oğlu Məmmədov** 1927-ci ildə Meğri rayonunda anadan olmuşdur. əməkdar jurnalist, nasir, publisist və ictimai xadim İ.Məmmədov müxtəlif vəzifələrdə çalışmış və "Ermənistan" SSRİ-nin Maarif Nazirinin müavini, "Sovet Ermənistanı" qəzetinin redaktoru və s. vəzifələrdə çalışmışdır. Tarix elmləri namizədi İ.Məmmədov Dövlət Mükafatı Laureatı adına və bir sıra orden, medal və mükafatlara layiq görülmüşdür.



**Kazım Hüseyn oğlu Novruzov** 1935-ci ildə Amasiya rayonunda anadan olmuşdur. Amasiya rayonunun Göllü, Güllücə, Qarabulaq, Qızılkənd məktəblərində müəllim, məktəb direktoru vəzifələrində çalışmışdır. Səmərəli pedaqoji fəaliyyətinə görə "Maarif əlaçısı" adına layiq görülmüşdür. Amasiya rayonunda "Əmək" qəzetində partiya həyatı şöbəsində müdir, "Ermənistan" MK-nin mətbuat orqanı olan "Sovet Ermənistan"ı qəzetinin hori-Pəmbək zonası üzrə müxbiri və rəhbəri olmuşdur. "Sumqayıt" və "Vətən səsi" qəzetlərində çalışmışdır. Mətbuat sahəsindəki xidmətlərinə görə "Əməkdar jurnalıst" fəxri adına layiq görülmüşdür.



**Köçəri Adil oğlu Nağıyev** 1966-cı il aprelin 22-də Zəgibasar rayonunun Yuxarı Necili kəndində anadan olmuşdur.

1988-ci ildə digər həmyerliləri kimi, Nağıyevlər ailəsi də erməni şovinistləri tərəfindən doğma yurddan qovulmuş, Bakıda məskunlaşmağa məcbur olmuşlar. El-obasına, millətinə qarşı bu haqsızlığı həzm edə bilməyən Köçəri Nağıyev burada xalq hərəkatının fəal iştirakçısına çevrilmiş, ilk işi didərgin salınmış soydaşlarımızı və onları haqsız hücümlardan qorumaq, problemlərinin həllinə çalışmaq olmuşdur. Bu məqsədlə "Zəngəzur" Cəmiyyətini yaratmağa nail olmuş və ona sədrlik etmişdir.



**Kövsər Tarverdiyeva Məhəmməd qızı** 14 iyul 1914-cü ildə İrəvanda anadan olmuşdur. 1931-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu bitirdikdən sonra, 1933-cü ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olmuşdur. 1952-ci ildə namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1939-cu illərdə Pedaqoji Universitetdə dekan vəzifəsində çalışmışdır. Xalq maarifi sahəsində uzun müddətli səmərəli fəaliyyətinə görə Azərbaycan Ali Sovetinin fəxri fərmanları, "Əməkdar ali məktəb işçisi", "Əmək veteranı" və s. orden və medallara layiq görülmüşdür.

**Kübra Məmmədova** İrəvanda anadan olmuşdur. İrəvan Azərbaycanlı Qadınlar klubunun bir müddət müdiri olmuşdur. İrəvan şəhər sovetinin deputatı olmuş, milli maarifimizin tərəqqisində böyük xidmətləri olmuşdur.





**Qadir İsmayıl oğlu İsmayılzadə** İrəvanda anadan olmuşdur. 1948-ci ildə Bakıya deportasiya edilmişdir. APİ-ni bitirmişdir. İctimai xadim Qadir İsmayılzadə uzun müddət İmişli rayonunda birinci katib və s. vəzifələrdə çalışmışdır.



**Qasım Mustafayev** 1928-ci ildə Amasiya rayonun Güllübulaq kəndində anadan olmuşdur. 1947-ci İrəvan Azərbaycanlı Pedaqoji məktəbini bitirmişdir. 1951-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra 1956-cı ilədək Naxçıvan Müəllimlər İnstitutunda çalışmışdır. Riyaziyyat elmləri namizədi, dosent Q.Mustafayev 1979-cu ildən 1984-cü ilədər Naxçıvan Pedaqoji İnstitutunun prorektoru, 1984-cü ildən 1987-ci ilədək isə rektor əvəzi vəzifəsində çalışmışdır.



**Qəşəm Novruz oğlu Aslanov** 1935-ci ildə Göycə mahalının Kəsəmən kəndində anadan olmuşdur. O, 1947-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olmuşdur. Sonra isə Bakı Dövlət Universitetini, Moskvada Ali Partiya məktəbini bitirmişdir. O, 1970-ci illərdə "Azərbaycan gəncləri" qəzetinin redaktoru, 1972-ci illərdə Şuşa rayon Partiya Komitəsinin birinci katibi, 1975-84-cü illərdə isə İsmayıllı və Abşeron rayon Partiya Komitəsinin birinci katibi işləmişdir.



**Qəşəm Cəlil oğlu Şahbazov** 1902-ci ildə Qəmərli rayonunda anadan olmuşdur. Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. 1941-ci ildə "Sovet Ermənistan" qəzetində Kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Bir sıra azərbaycanlı rayonlarında mühüm vəzifələrdə çalışan Q.Şahbazov 1947-ci illərdə Zəngibasar rayonun birinci katibi olmuşdur.



**Qurban Məsimov** İrəvanda anadan olmuşdur. İrəvanda nəşr edilən "Zəngi" qəzetinin ən fəal müxbirlərindən biri olmuşdur. O, İrəvanda milli mətbuatımızın formalaşmasında böyük rol oynamış, "Zəngi" qəzetində şöbə müdiri kimi fəaliyyət göstərmişdir.



**Leyla Adil qızı Süleymanova** 1955-ci il yanvarın 12-də İrəvan şəhərində anadan olmuşdur. 1972-ci ildə Puşkin adına məktəbi bitirib. Həmin ildə X.Abovyan adına İrəvan Dövlət Pedaqoji İnstitutuna daxil olub. 1976-cı ildə oranı müvəffəqiyyətlə bitirib. 1971-ci ildə SSRİ idman gimnastikası üzrə idman ustası adına layiq görülmüşdür.

1972-ci ildə qızlar arasında "Ermənistan" çempionu adını alıb və fəxri fərmanla təltif olunub. Moskva şəhərində İdman gimnastikası üzrə keçirilən yarışlarda iştirak edərək 2-ci dərəcəli Diplomla təltif olunub.

Leyla Süleymanova çoxsaylı idmanda qazandığı nailiyyətlərə görə çoxsaylı mükafatlarla təltif olunub. Daha sonra Bunu da Olimpik Rezerv İdman məktəbində gimnastika üzrə məşqçi işləmişdir. Bakıda Uşaq Gənclər İdman məktəbində 2015-ci ilə qədər direktor vəzifəsində işləmişdir.

**Mehdi Kazımov** 1890-ci ildə İrəvan şəhərində anadan olmuşdur. O, İrəvan gimnaziyasını bitirmişdir. M.Kazımov 1922-ci ildə "Ermənistan" Xalq Maarif Komissarlığı yanında "Azlıqda qalan millətlər bürosu"nun müdiri, 1925-ci ildə İrəvan Yeni Türk Əlifba Komitəsinin sədr əvəzi, 1924-cü ildən 1932-ci illərdə və sonralar isə müxtəlif vaxtlarda İrəvan Azərbaycanlı Pedaqoji Texnikumun direktoru, 1932-1933-cü illərdə "Ermənistan"



Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı bölməsinin məsul katibi vəzifələrində çalışmışdır.



**Mehdi bəy Əsəd bəy oğlu İsmayılov** 1888-ci ildə İrəvanda anadan olmuşdur. O, 1910-17-ci illərdə Moskva Kommersiya İnstitutunda iqtisadi ixtisası üzrə təhsil almışdır. 1920-ci ildə Bakıda kəndli partiya məktəbinin direktoru 1925-ci ildə isə AK(b) PMK-da təbliğat-təşviqat şöbəsinin müdiri, ÜİK(b) P Zaqafqaziya Komitəsində məsul təbliğatçı, 1933-cü ildə Azərbaycan Sosial-İqtisad İnstitutunun və 1939-cu ildə Azərbaycan Ticarət-Kooperativ İnstitutunun direktoru vəzifələrində çalışmışdır.



**Məhərrəm Abbasəli oğlu Hüseynov** 1945-ci ildə Göyçə mahalının Şorca kəndində anadan olmuşdur. Ardanış kənd məktəbini bitirdikdən sonra indiki BDU-nun filologiya fakültəsinə daxil olmuşdur. 1975-1989-cu illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsində baş müəllim, dosent kimi çalışmışdır. Filologiya elmləri doktoru, professor M.Hüseynov ADPU-da dekan müavini vəzifəsində çalışır. 10-dan artıq kitabın 120-dən artıq elmi əsərin müəllifidir.



**Məmməd Həsənov** Qərbi Azərbaycanda anadan olmuşdur. O, İrəvan Azərbaycanlı Pedaqoji məktəbində riyaziyyat fənnini tədris etmişdir. İrəvan ziyalıları arasında böyük nüfuza malik idi.



**Məmməd Yusifzadə** İrəvanda anadan olmuşdur. İrəvanda milli maarifimiz və ədəbi-mədəni mühitin tərrəqisində böyük fəaliyyət göstərmişdir.



**Məmmədəli Məmmədcəfər oğlu Məhərrəmov** Amasiya rayonunda anadan olmuşdur. O, 1946-cı ildə İrəvan Pedaqoji İnstitutuna daxil olmuş, amma tarixin ən ədalətsiz hadisələrindən olan 1948-ci deportasiyası ona təhsilini Bakıda davam etdirməyə imkan verməmişdir. O, BDU-nun Fizika-riyaziyyat fakültəsini bitirdikdən sonra Amasiya rayonuna qayıtmış öz pedaqoji fəaliyyətini uğurlu davam etdirmişdir. Məmmədəli müəllim səmərəli pedaqoji fəaliyyətinə görə bir sıra orden və medallarla təltif edilmişdir.



**Məmmədtağı İbrahim oğlu Cəfərov** 1936-cı ildə Amasiya rayonunda anadan olmuşdur. İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunu bitirmişdir. 1959-cu ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Kənd Təsərrüfatı elmləri doktoru, pröfessor, akademik M.Cəfərov müxtəlif vəzifələrdə işlənmiş, uzun müddət Kənd Təsərrüfatı Akademiyasının rektoru, Azərbaycan Ziyalılar Cəmiyyəti İH-nin sədri və s. vəzifələrdə çalışmış, bir sıra orden, medal və mükafatlara layiq görülmüşdür.



**Mənzərə Məşədi Abbas qızı Cəfərova** 1937-ci ildə İrəvanda anadan olmuşdur. İrəvan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir. İrəvanda pedaqoji fəaliyyət göstərən Mənzərə xanım sonralar müəllimlik fəaliyyətini Bakıda davam etmişdir. 1998-ci ildə "İlin müəllimi", 2007-ci ildə isə "Əməkdar müəllim" və bir sıra fəxri fərman və mükafatlara layiq görülmüşdür.



**M.Əsədov** İrəvanda anadan olmuşdur. O, ictimai-siyasi fəaliyyəti ilə İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafına öz töhvəsini verən ziyalılarımızdan biri olmuşdur.



**Mir Yusif Mirbabayev** 1889-cu ildə İrəvanda anadan olmuşdur. O, İrəvan gimnaziyasını bitirmişdir. 1916-cı ildə isə Moskva Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. O, 1927-ci illərdə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda dərs demişdir. İrəvanda Azərbaycan ədəbi-mədəni mühitində fəal iştirak edən Mir Yusif Mirbabayev 1946-cı illərdə AMEA-nın Dilçilik İnstitutunun direktoru və bir sıra vəzifələrdə işləmişdir. O, elmi fəaliyyətinə görə bir sıra mükafatlara layiq görülmüşdür.



**Mirzə Ələsgər Rzazadə** 1892-ci ildə İrəvanda anadan olmuşdur. 1920-ci ildə İrəvanda tam olmayan orta məktəbə müdir təyin edilmişdir. Bölgədə böyük nüfuza, yüksək savada malik olduğundan hamı ona "Mirzə" deyə müraciət edərdi. İrəvan bölgəsində qabaqcıl, fədakar milli maarifçilərimizdən biri olmuşdur.



**Mustafa Hüseynov** İrəvanda anadan olmuşdur. İrəvanda milli maarifimizin, mədəniyyətimizin formalaşmasında və inkişafında onun da müstəsna xidmətləri olmuşdur. İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin aparıcı fiqurlarından biri idi. 1926-cı ildən 1935-ci illərədək İrəvanda Azərbaycan dilində nəşr edilən "Zəngi", "Qızıl şəfəq" qəzetinin baş redaktoru olmuşdur. 1937-ci ildə amansız repressiyaya məruz qalaraq güllələnmişdir.



**Mustafa Mustafayev** İrəvanda anadan olmuşdur. 1934-cü illərdə İrəvan Azərbyacanlı Pedaqoji Texnikumuna rəhbərlik etmişdir. İrəvanda milli maarifimizin inkişafında xidmətləri olan M.Mustafayev 1937-ci ildə repressiyaya məruz qalmışdır.



**Mirzə Cabbar Məmmədzadə** 1882-ci ildə İrəvanda anadan olmuşdur. 1902-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Uzun müddət Naxçıvanda, İrəvanda müəllimlik etmişdir. 1920-ci illərdə Azərbyacan Dövlət Universitetində, Politexnik İnstitutunda çalışmışdır. Professor C.Məmmədzadənin Azərbaycan maarifinin və elminin inkişafında müstəsna xidmətləri olan böyük ziyalılarımızdandır.



**Murtuza Muradov** İrəvanda anadan olmuşdur. “Zəngi” qəzetinin ilk yaradıcılarından biri olmuşdur. O, qəzetin işıq üzü görməsində və onun təbliğində böyük rol oynamış, İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafına öz tövhəsini vermişdir.



**Nazim Yusif oğlu Mustafayev** 1957-ci ildə Amasiya rayonunu Güllübulaq kəndində anadan olmuşdur. 1977-ci ildə BDU-nun riyaziyyat fakültəsini bitirmişdir. O, 1992-1993-cü illərdə AMEA-nın Fəlsəfə Hüquq İnstitutunda, Milli Münasibətlər İnstitutunda, 2003-cü ildə AMEA-nun Tarix İnstitutundamüxtəlif elmi vəzifələrdə çalışmışdır. Tarix elmləri namizədi, Dövlət Mükafatı Laureatıdır.



**Nəriman Əliyev** 1911-ci ildə Böyük Vedidə anadan olmuşdur. 1929-cu ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu bitirdikdən sonra, 1930-ci ildə azərbaycan Tibb Universitetinə daxil olur. O, 1948-ci ildə tibb elmləri namizədi, 1970-ci ildə isə tibb elmləri doktoru elmi dərəcəsi almışdır. Əməkdar elm xadimi, professor Nəriman Əliyev bir sıra orden və medallarla təltif edilmişdir.



**Nəzər Abdulla oğlu Paşayev** 1908-ci ildə Böyük Vedidə anadan olmuşdur. 1930-cu ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmişdir.1936-cı ildə isə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1949-cu ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi, 1960-cı ildə isə tarix elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Professor N.Paşayev uzun müddət Azərbaycan Dövlət Pedaqoji Universitetində "Azərbaycan tarixi" kafedrasının müdiri vəzifəsində çalışmışdır.



**Nəriman Kazımov** 1926-cı ildə Böyük Vedi kəndində anadan olmuşdur. 1939-cu ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmişdir. 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1975-ci ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.

**Orucəli Hüseynqulu oğlu Rzayev** 1956-cı ilin mayında Uluxanlı kəndində anadan olub.



1973-cü ildə orta məktəbi, 1977-ci ildə H.Zərdabi adına GDPİ-nin Fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib, 1988-ci ildən ÜTF kafedrasında müəllim, 1990-ci ildən mühəndis, pedaqoji fakültədə dekan müavini, 1991-ci ildən ÜTF kafedrasında baş müəllim vəzifələrində çslışıb. 1994-cü ildən ÜTF kafedrasının dosenti, 1996-cı ildən ÜTF kafedrasının müdiri, 1997-ci ildən institutun tədris işləri üzrə prorektoru vəzifəsində işləmişdir.



**Rauf Adil oğlu Süleymanov** 1949-cu ildə İrəvan şəhərində anadan olmuşdur. Rauf Süleymanov İrəvan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. AMEA-da elmi fəaliyyətə başlamışdır. O, 1976-cı ildə namizədlik, 1985-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Dövlət Mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, professor R.Süleymanovun Azərbaycan və Türkiyənin elm və təhsil potensialının inkişafında böyük rolu olmuşdur.

**Rəziyə İsmayılova** 1917-ci ildə İrəvanda anadan olmuşdur. O, 1944-cü illərdə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda dərs demişdir. 1950-ci illərdə Azərbaycana deportasiya olunmuşdular. Ömrünün sonunadək Bakı şəhərində pedaqoji fəaliyyətini davam etdirmişdir.





